# Polifonik və iri həcmli əsərlərin yeri və əhəmiyyəti

**İradə Əhməd qizi Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinın baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** p.ü.f.d., dos. K.R. Sədirxanova,
p.ü.f.d., dos. A.F. Aşumova

**Açar sözlər:** tələbə, polifoniya, İ.S. Bax, sonata, invensiya, repriz, fortepiano
**Ключевые слова:** студент, полифония, И.С. Бах, соната, инвенция, реприза, фортепиано
**Key words:** student, poliphony, I.S.Bakh, sonata, invasion, reprise, piano

Müəllimin ifaçılıq mədəniyyəti, onun musiqi savadının təzahürlərindən biridir. "Əsas musiqi aləti" kursunun məqsədi-musiqi alətində çalmaq vərdişlərinə yiyələnmiş, hərtərəfli inkişaf etmiş musiqiçi tərbiyələndirmək, tələbələrin estetik zövqünü, musiqi sənətinə şüurlu münasibətlərini, dünya musiqi mədəniyyətinin ən yaxşı əsərləri ilə tanışlıq, not mətninin düzgün oxunması və xüsusi ifaçılıq təcrübəsi əsasında musiqi əsərlərinin bədii obrazını açmaq bacarığı və s. aşılamaqdır.

Adətən tələbəyə proqramın seçiləndə, müəllim çalışır ki, proqramda rəngarəng, müxtəlif məktəblərə aid bəstəkarların əsərləri öz yerini tapsın. Məsələn, proqramda bir semestr üçün bir polifonik əsər, bir iri formalı əsər (sonata ya varsiyasiyalar), iki pyes və etüd, bundan başqa eskiz formada keçilən bir əsər, ansambl, 5-6 üzdən oxumaq üçün çətin olunmayan əsərlər. Sonata Vyana klassiklərinin əsərlərindən seçilərsə, pyes yaxşı olar ki, romantiklərin (Şopen, Şuman) və ya rus bəstəkarlarının əsərlərindən seçilsin. İkinci pyes isə mütləq Azərbaycan bəstəkarlarının pyeslərindən verilməlidir.

Adətən polifonik əsərlərdən ən çox istifadə olunan İ.S. Baxın prelüdiya və fuqaları, 2 və 3 səsli invensiyaları, orqan prelüdiyaları, partitalaralar, zəif tələbələr üçün isə kiçik prelüdiya və fuqalardır. Bundan başqa Şostakoviçin prelüdiya və fuqaları də istedadlı tələbələr üçün nəzərdə tutula bilər. Soruşula bilər ki, nəyə görə Baxın əsərlərindən belə geniş istifadə olunur. Bu sualın cavabı belədir ki, Bax – polifoniyanın padşahı sayılır. Bu bəstəkarın əsərlərini ifa etmək - böyük bir məktəb keçməyə bərabərdir.

Proqram üzrə çalınan iri formalı əsərlərin içərisində Motsartın, Haydnın, Şubertilq, Qriq, Şumanın, Sen-Sans, Bethovenin, eləcə də Skarlattinin, Klementinin, Çimarozanın, sonatalarını saymaq olar. Bunlarla yanaşı Azərbaycan bəstəkarlarının da iri formada yazılmış əsərləri daxildir. C.Hacıyev, Q.Qarayev, M.Mirzəyev, E.Mahmudov, V.Adıgözəlov, Ə.Abbasovun sonatalarının adlarını çəkmək olar. Eləcədə F.Əmirov və E.Nəsirovanın ərəb mövzusunda konserti, A.Rzayevin konserti. Sonatalar və konsertlərdən başqa çox sayda variasiyalarda əsas musiqi aləti proqramına daxildir. Bunların içində Motsartın variasiyaları, Şumanın "Abeqq" variasiyaları, azərbaycan bəstəkarlarından F.Əmirovun variasiyaları mi-minor, E.Dadaşovanın 5 varsiasiyası.

Proqrama daxil olan pyesləri nəzərdən keçirəndə birinci növbədə diqqəti dəb rəngarəngliyi cəlb edir. Burada klassik, romantik, rus bəstəkarları, Azərbaycan bəstəkarları özünə yer tapmışdır. Şübhəsiz ki, tədris prosesin ərzində tələbə kifayət qədər musiqi nümunələri keçir, bu-

raya eskiz formada keçilən əsərlər, müstəqil iş formasında keçilən əsərlər, üzdən oxuma formasında da il boyu 20-30 əsər mənimsənilir. Polifonik əsərlər fortepiano sənətinin ən vacib, repertuarın ən lazımlı hissələrindən biri sayıldığı üçün baş verən təhsil müddətində ona geniş diqqət yetirilməlidir. Fortepiano ifaçısı polifoniyanı eşitmə qabiliyyətinə malik olmalı, onun fakturasını bütöv bir şəkildə anlaya bilməlidir ki, bunların da sayəsində o polifonik təfəkkürünü yüksək səviyyədə inkişaf etdirə bilsin.

Polifoniyanı öyrənərkən ümumilikdə, əsərin əsas prinsiplərinin mənimsənilməsi kimi vacib olan iş də dayandırılmır, lakin onda tələblər başqa olur. Polifoniyanın əsas xüsusiyyətlərindən biri melodiya sırasını inkişaf etdirən bir neçə səsin eyni vaxtda səslənə bilməsidir. Tələbənin qarşısında qoyulan əsas vəzifələrindən biri, polifonik əsərdə ifa olunan ayrı-ayrı səsləri eşidib, onların bir-birilə əlaqələrini yaratmaqdan ibarətdir. Baxın intonasiyalı musiqi sırası, ondan əvvəl yaşayıb-yaratmış olan Bukstexudenin, Paxelbelin, Freskobaldinin, Vivaldinin musiqi əsərlərinə yaxındır. Klavir üçün ilk dəfə konsert əsəri yazan Bax, bu musiqi alətinin nəyə qadir olduğunu aşkar etmiş, onu müstəqil bir alət kimi dinləyiciyə çatdırmışdır. O dövrdə kamil sayılmayan, ifaçı baxımından kəsir olan klavirin, klavikord kimi musiqi alətlərində Bax, gələcəyə can atan musiqi ədəbiyyatını bizlərə qoyub getmişdir ki, bu əsərlərdə yazılanlar hələ indinin özündə də yəni XXI əsrdə də öz təravətini itirməmişdir.

Baxın fuqalarının hər biri ayrı-ayrılıqda parlaq surətdə təsirli olmaqla bərabər, öz yığcamlığı və forması nizamlı olmağına görə, polifonik üslubda yazılan, yüksək keyfiyyətli əsərlərdəndir. Baxın əsərlərindəki polifonik mövzu, özünün nizamına, harmoniyasında mövcud olan zənginliyinə və ton ahənginə görə, polifonik üslubda yazılan əsərlər içərisində ən yüksək zirvəyə ucalır. Bax polifoniyasının tarixi əhəmiyyəti ondan ibarətdir ki, orada dərin fəlsəfə olan yüksək bədii nümunələr yaratmaq imkanı yaradan tematizmin və onun inkişafının əsas prinsipləri öz əksini tapmışdır. Çoxsəsli əsərləri ifa edərkən, bütövlükdə bütün material (iki səsliyə nisbətən) eşidə bilmək ehtimalı azalır.

Əsərin savadlı təhlili bütün səslərin eşidilməsi və ifa olunmasından asılıdır. Hansı səsin nə vaxt səslənməsini eşitmək və onların ifa vaxtı eşidilib-eşidilməməsini təyin etmək vacibdir. Səslərin dəqiq ifası haqda narahatlıq, məcbur edir ki, applikaturaya xüsusi olaraq diqqət yetirilsin. Polifonik əsərlərdə onun xüsusiliyi-səsi saxlamaqdan ötrü barmaqların tez-tez yerlərini dəyişməkdən ibarətdir. Əvvəl-əvvəl bu proses tələbəyə çətin görünür. Buna görə imkan daxilində tələbə ilə applikatura haqda söhbət aparılmalıdır və bütün qaranlıq olan məsələlər aydınlaşdırıldıqdan sonra, həmin qaydalara ciddi riayət olunmalıdır.

Bizcə, tələbənin əsərin hər bir hissəsi ilə ayrıca olaraq tanışlığı (strukturunun analizi, mürəkkəb quruluşun mənimsənilməsi və s. bu kimi) öyrənilməsi sayıla bilər. Tələbə lazımi bilikləri əldə etmək üçün hər bir səsi ayrı-ayrılıqda təhlil etməli, onları dönə-dönə məşq etməlidir, sözsüz ki, gələcəkdə ifa edəcəyi applikaturada, özü də frazirovka və ştirixləri nəzərə almaq şərti ilə. Daha sonra o əsərin ayrı-ayrı səslərinin öyrənilməsi prosesinə, ondan sonra isə bütövlükdə çoxsəsliliyin tam şəkildə mənimsənilməsi işinə keçməlidir.

Klavir əsərlər üzərində işləyərkən, onu bilmək lazımdır ki, Baxın musiqisi xüsusi ifa tələb edir. İfa zamanı tərtib olunan vaxt çərçivəsindən kənara çıxmaq olmaz. Əsərdə eyni temp güdülməlidir ki, onu da yalnız müəllifin müəyyən etdiyi məqamlarda dəyişmək olar.

Baxın əsərlərini onlara məxsus olan aram tempdə ifa etmək lazımdır ki, əks halda onların ritmi itir. Dinamik planda bu əsərlər ifa zamanı alabəzək nüansları qəbul etmir. İfa zamanı uzun artma əhəmiyyətli kulminasiyalar, böyük sıradüzümü və ya kontrast bölmələr, dinamik ahəng mümkündür. Baxın polifoniyası üzərində işləyərkən, belə bir məsələ qarşıda dayanır: sağ pedaldan istifadə qaydası. Əlbəttə sağ pedaldan istifadə, musiqi əsərinin xarakter və nö-

vündən asılıdır. Lakin bununla yanaşı bilmək lazımdır ki, böyük əsərlərin ifası zamanı pedaldan istifadə, xüsusi həssaslıq tələb edir, (bu ələlxüsus XVII-XIX əsrlərdə yazılan musiqiyə aiddir).

Tələbələr Baxın əsərlərinin ifası zamanı pedaldan istifadə etməsələr və ya az istifadə etsələr yaxşıdır. Sonrakı təhsil dövründə Baxın prelüdiyaları və fuqaların ifası zamanı tələbə pedaldan nadir hallarda istifadə etməlidir. Belə bir məsləhət olar ki, pedaldan yalnız əllər və ya digər melodik sıranı birləşdirə bilmədikdə istifadə etmək olar. Belə ki, d-moll fuqada və ya Fis-dur prelüdiyada yəni harada ki, səs sırası qırılmış olub. Qıs-moll  fuqasında, hərdən pedaldan istifadə olunur ki, bu da harmonik səslənməni aşkar etmək üçündür. Ancaq bütün bunlar o demək deyil ki, Baxın polifoniyasında pedaldan istifadə etmək lazım deyil.

Müəllim heç bir vaxt yaddan çıxartmamalıdır ki, polifonik musiqini tam qavrayan tələbə, polifonik əsərləri yaxşı ifa etməklə yanaşı, həm də gözəl pianoçuya çevrilir. Bunu tələbənin özü də anlamalıdır. Polifonik musiqi üzərində iş, səslərin yaxşı qavranmadığına, temp ifasının öyrənilməsinə, leqato sirlərinin yiyələnməsinə zəmin yaradır. Polifonik əsərlər, yüksək texniki ustalığın da qazanılması işində az rol oynamış: ifada dəqiqliyə riayət etməyə şərait yaradır. Barmaqların, biləyin elastik, “sözəbaxan” olmasını təmin edir.

Xarici bəstəkarlıqla yanaşı, Azərbaycan bəstəkarlarının da əsərləri var. Lakin Baxın polifonik musiqisi elə bir məktəbdir ki, onun sirlərinə bütün pianoçular yiyələnməlidir. Bütün şedevrlər kimi, Baxın polifoniyası, eyni vaxtda həm olduqca mürəkkəb, həm də çox sadə sayılır. Baxın polifonik əsərlərini ifa etməyi bacaran pianoçu digər formalı əsərləri asanlıqla ifa edə bilər, istər bu klassik sonata, istər romantik bəstəkarların əsərləri olsun. Sonda, Baxın polifonik musiqisini xarakterizə edən əsas məqamlardan danışaq.

Onlar Bülbül adına  musiqi məktəbində və ADPU-nin “Musiqi” kafedrasında 40 illik iş təcrübəsi nəticəsində əldə olunmuşdur: 1. Polifonik əsərlərdə olan səslər, həm növbə ilə həm də pərakəndə dönə-dönə öyrənilməlidir. 2. Polifonik əsərlərdə mövcud olan ayrı-ayrı cüt səslər (soprano-baş, soprano-tenor, baş-tenor və s.) daim məşq edilməli, hər bir səsin individual melodiya - tematik xüsusiyyətləri aşkar edilməlidir. 3. Polifonik əsərlər bir və ya iki musiqi alətində eyni vaxtda cüt səslə (müəllim-tələbə) ifa olunaraq öyrənilməlidir. 4. Hər bir səsin ucadan və ya özü-özündə oxunması həyata keçirilməlidir, yəni gah baş tenor, gah da altda oxumaqla səslər təkmilləşdirir. 5. Polifonik əsərləri ifa edərkən, əsas diqqəti bir səsdə cəmləmək lazımdır ki, bu zaman o birlərinin səsi azaldılmalıdır.

Fortepiano fənni tədrisində iri formalı əsərlər vacib yerlərdən birini tutur. Buraya sonatinalar, sonatalar, variasiyalar və konsertlər daxildir. Fənnin proqramını nəzərdən keçirsək, burada Skarlattinin, Motsartın, Haydnın, Betxovenin, Şumanın, Şubertin sonatalarına, Mendelsonun, Sen-Sansin, Bethovenin, Haydnın konsertlərinə yer verdiyini görə bilərik. Sözsüz ki, bunlar tələbənin hazırlığından asılıdır. Zəif tələbə üçün Klementinin, Çimarozanın sonatalarını vermək olar, hazırlıqlı tələbələr isə Bethoven, Motsart, Şuman kimi bəstəkarların iri həcmli əsərlərini əfv edə bilərlər. Azərbaycan bəstəkarlarına gəldikdə isə, ən çox çalınan Q.Qarayevin, «Sonatinasını», F.Əmirovun «Romantik sonatinası», Nəsirbəyovun, A.Bəbirovun sonatalarını qeyd oluna bilər. Digər musiqi formaları arasında sonata forması özünün mürəkkəbliyi ilə seçilir. Sonata forması 3 hissədən ibarətdir: ekspozisiya, işləmə və repriza.

Bundan başqa sonata girişlə başlana bilər və koda ilə qurtara bilər. Ekspozisiya öz növbəsində 2 hissəyə bölünür, onlar əsas və köməkçi mövzu adlanırlar. Əsas mövzu xüsusi dinamikliyi ilə, gərgin inkişafı ilə, dramatizmi ilə fərqlənir, gələcək inkişafa böyük potensialı ilə. Köməkçi mövzu xarakter etibarı ilə əsas mövzuya əks münasibdədir. Əsasən köməkçi mövzu əsas mövzuya kontrast olur. İri formanın növbəti hissəsi işləmə adlanır. İşləmədə ekspozi-

siyadakı mövzuların gərgin inkişafı və yenidənqurması baş verir.

Repriza isə adətən ekspozisiyasını təkrarlayır, bircə fərq ondandır ki, reprizada köməkçi mövzu əsas tonallıqda verilir. Haydn və Motsartın sonataları kodanın olmaması ilə fərqlənir. Bu sonatalarda reprizadan sonra tonikanı təsdiqləyən əlavə kodensiya olur. Daha qəliz dramaturgiyalı sonatalarda məzmunu bitirən koda olur. Tələbənin sonata forması üzrə işi çox çətinliklərdən ibarətdir. Bu çətinliklər əsərin mürəkkəbliyindən, onun pianistik çətinliyindən, eləcə də tələbənin psixologiyasından, onun dünyagörüşündən asılıdır.

Qeyd etmək lazımdır ki, qərbi Avropa bəstəkarlarının iri həcmli əsərləri ilə yanaşı, tələbəyə mütləq şəkildə Azərbaycan bəstəkarlarının sonata və konsertlərini də çaldırmaq lazımdır. Bu tələbənin tədris prosesinə marağını daha da artırar. İri formalı əsər üzərində iş bütöv bir prosesdən ibarətdir, bununla yanaşı orada üç mərhələ qeyd etmək olar: 1. Əsər ilə tanışlıq, üzdən oxuma; 2.Ümumi və xüsusi çətinliklərin aradan qaldırılması, detalların mənimsənilməsi; 3.Əsər üzərində bütövlükdə iş.

**Məqalənin aktuallığı.** Əsərin öyrənilmə prosesində ən vacibi mətnin düzgün oxunmasıdır. Musiqi mətninin düzgün oxunması isə əsərin bədii obrazının açılmasında mühüm rol oynayır. Məqalədə də məhz bu məsələyə toxunulduğundan onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** İ. Baxın əsərlərinin müasir pianoçuların repertuarına daxil edilməsi onunla əlaqədardir ki, bu əsərlər XVIII əsr dünya musiqisinin parlaq nümunələridir. Məqalənin elmi yeniliyi də məhz bununla şərtləndirilir.

**Məqalənin praktik əhəmiyyət və tətbiqi.** Təcrübədə məqalənin məzmununun istifadəsi polifoniya və iri həcmli əsərlərin düzqün interpretasiyasının tapılmasında müəllim və tələbələrin yardımçısı ola bilər.

## Ədəbiyyat


1. Алексеев А.Д. Методика обучения игры на фортепиано. М.,1978.
2. Мазель Л. Строение музыкальных произведений. М., 1962.
3. Сохор А. Эстетическая природа жанра в музыке. Л., 1968.
4. Цуккерман В. Музыкальные жанры и основы музыкальной формы. М., 1964.


**И.А. Ахмедова**

## Место и значение произведений полифонической и крупной формы

## Резюме

Во время обучения студентов, одно из важнейших мест занимает изучение произведений крупной и полифонической формы. Основным музыкальным материалом в изучении полифонии являются произведения И.С.Баха, которые признаны базовыми в мировой музыкальной литературе. Освоив этот пласт музыки, пианист приобретает определенный профессиональный уровень, что в свою очередь может позволить ему перейти на следующую ступень.

**I.A. Ahmadova**

## Place and significance of polyphonic and large form works

## Summary

During the training of students, one of the most important places is the study of works of a large and polyphonic form. The main musical material in the study of polyphony are the works of I.S. Bach, which are recognized as basic in world musical literature. Having mastered this layer of music, the pianist acquires a certain professional level, which in turn can allow him to go to the next stage.

**Redaksiyaya daxil olub:** 28.01.2021